Təsdiq edirəm

ADMİU-nun rektoru

__________Professor Ceyran Mahmudova

"30" "may" 2023-cü il

ADMİU

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
# Məzunlar Assosiasiyasının Əsasnaməsi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin

Elmi Şurasının "30" "may" 2023-cü il

tarixli iclasında təsdiq edilmişdir.

**Bakı – 2023**

1. **Ümumi müddəalar**

- Məzunlar Assosiasiyası (bundan sonra Assosiasiya) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra ADMİU) rəhbərliyinin və məzunlarının təşəbbüsü ilə könüllü üzvlük əsasında yaradılmış ictimai birlikdir.
- Assosiasiya ADMİU-nun daxili təşkilatıdır və ictimai əsaslarla fəaliyyət göstərir.
- Hüquqi şəxs deyildir və Ədliyyə Nazirliyində qeydiyyatdan keçmir.
- Öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, ADMİU-nun hüquqi sənədlərini və bu Əsasnaməni əsas götürür.
- Assosiasiya bərabər hüquqlu üzvlərdən ibarət kollegial orqandır.
- Assosiasiya hüquqi şəxs deyil, üzvlərinin səs çoxluğu ilə seçdikləri İdarə Heyəti və rektorun təsdiq etdiyi sədr tərəfindən idarə edilir.

2. **Assosiasiyanın məqsəd və vəzifələri:**

2.1. Assosiasiyanın yaradılmasında məqsəd:

- ADMİU məzunlarının universitetlə əlaqələrinin saxlanmasını təmin etmək,
- ADMİU-nun məzunlarının əmək bazarındakı təcrübələrini təhsilalanlarla bölüşməsinə zəmin yaratmaq,
- Dünyanın hər yerindəki məzunlarla əlaqə yaratmaq və onları bir araya gətirmək,
- Müntəzəm görüşlər və tədbirlər həyata keçirməklə məzunların yaradıcı, elmi və işgüzar fəaliyyətlərinin inkişafına təsir göstərmək, həmçinin onların müvafiq sahələrdə maraqlarını öyrənmək,
- Məzunların ömürboyu təhsil kontekstində peşəkar və akademik inkişafına kömək etmək,
- Məzunlardan toplanan məlumat və rəylərlə təhsil prosesinə töhfə vermək,
- Universitetin əmək bazarında tələb olunacaq gələcək kompetensiyalara uyğun strategiyasının hazırlanmasında dəstək verməkdir.

2.2. Assosiasiyanın vəzifəsi

- Məzunlar vasitəsilə ADMİU-nun nüfuzunun artmasına kömək etmək,
- ADMİU-nun məzun kontingentinin öz fəaliyyətində Universitetlə əməkdaşlığını təmin etmək,
- Tələbə və məzunların universitetə olan mənsubiyyət hissini gücləndirmək,
- Universitet ictimaiyyətinə könüllü əsaslarla sosial, mədəni və iqtisadi yardım göstərməkdir.

2.3. Assosiasiya siyasi birlik deyil və hər hansı siyasi fəaliyyətlə məşğul ola bilməz. Assosiasiyanın üzvləri Assosiasiyanın fəaliyyətindən kənar fərdi şəkildə siyasi fəaliyyət göstərə bilərlər.

3. **Assosiasiyanın fəaliyyəti.**

3.1. Assosiasiya qarşısına qoyulmuş meqsed ve vezifeleri uğurla həyata keçirmək məqsədilə:

– öz meqsed və vezifələrini təbliğ edir;
– ölkə ərazisində, həmçinin digər ölkələrdə fəaliyyət göstərməkdə olan digər ali təhsil müəssisələrinin məzunlar birlikləri ilə əməkdaşlıq edir;
– hər il universitet məzunlarının siyahısını hazırlayır;
– cari ilin məzunlarının Assosiasiyaya üzvlüyünü təmin edir;
– məzunların və tələbələrin peşə hazırlığının artırılmasına görüşlər, konsultasiyalar və təlimlər keçirilməsi vasitəsilə dəstək göstərir;
–ADMİU-nun məzunları üçün qəbullar, vörkşoplar, təqdimatlar, seminarlar, banketlər, mətbuat konfransları, görüşlər, istirahət saatları təşkil edir;
– Assosiasiya üzvlərinin yaradıcı, ixtiraçı və sahibkarlıq fəaliyyətlərinə kömək edir;
– Assosiasiyanın üzvləri tərəfindən, yaxud onların iştirakı ilə ərsəyə gətirilən elmi, yaradıcılıq və digər əsərlərin toplanması, mühafizəsi və təbliğini təşkil edir.

4. **Assosiasiyanın üzvlüyünə qəbul.**

4.1. Assosiasiyaya üzv olunması bu əsasnaməyə uyğun olaraq könüllü qaydada həyata keçirilir;

4.2. Universiteti nə zaman bitirməsindən, ali təhsilin hansı səviyyəsini bitirməsindən və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq bütün məzunlar Assosiasiyaya üzv olmaq hüququna malikdir;

4.3.Assosiasiyaya üzvlük şəxsi ərizə ilə, fərdi qaydada, tam könüllülük əsasında ümumi yığıncağın növbəti iclasında həyata keçirilir;

4.4 Assosiasiyanın **"Fəxri üzvləri"** statusu təsis edilir və bu üzvlüyə ölkənin ictimai – siyasi, iqtisadi, elmi və mədəni həyatında xüsusi xidmətləri olan məzunlar İdarə heyətinin dəvətilə şəxsi razılıqları əsasında qəbul edilirlər. **Universitetin rektoru** tutduğu vəzifəyə görə Assosiasiyanın fəxri üzvü olur.

5. **Assosiasiya üzvünün hüquq və vezifələri.**

5.1. Üzvlərin aşağıdakı hüquqları var:

– Universitetin kitabxanasından iş günləri daxilində istənilən zaman istifadə etmək;
– Müxtəlif təyinatlı ixtisaslaşdırılmış altqruplar təşkil etmək;
– Assosiasiyanın fəaliyyəti ilə bağlı fikir bildimək, təkliflər vermək;
– Sədr seçilmək və sədr seçkisində iştirak etmək;
– Assosiasiyanın fəaliyyəti çərçivəsində təlimlər keçmək;
– İş günü ərzində Assosiasiyanı ziyarət etmək;
– Assosiasiya tərəfindən təşkil olunan bütün tədbirlərində iştirak etmək;

- Assosasiyanın ümumi yığıncaqlarında iştirak etmək;
- ehtiyac olduqda Assosiasiyanın köməkliyindən istifadə etmək;
- istədiyi vaxt üzvlükdən çıxmaq;

5.2. Üzvlərin vəzifələri:

- Assosasiyanın Əsasnaməsinin tələblərinə riayət etmək;
- Assosiasiyanın nüfuzunun qorunmasına çalışmaq;
- Assosiasiyanın keçirdiyi tədbirlərdə və iclaslarda iştirak etmək;
- Assosasiyanın işinin səmərəli olması üçün köməklik göstərmək;
- əvvəlki illərin məzunlarının universitetlə əlaqələndirilməsinə dəstək vermək, onlarla əlaqə yaradılmasına çalışmaq.

6. **Assosiasiyanın idarə olunması.**

6.1. Assosiasiyanın ali orqanı üzvlərin ümumi yığıncağıdır. Ümumi yığıncaqlar arası müddətdə bu fəaliyyəti sədrin rəhbərliyi altında idarə heyəti həyata keçirir.

6.2. Ümumi yığıncaqlar ildə iki (2) dəfədən az olmayaraq çağırılır. Növbədən kənar yığıncaqlar İdarə Heyətinin, yaxud üzvlərin sayının 20%-dən çoxunun qərarı, habelə rektorun təklifi ilə çağırıla bilər. Ümumi yığıncaq üzvlərin sayının yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Ümumi yığıncaqda qərarlar iştirak edənlərin sadə səsçoxluğu ilə qəbul olunur. Ümumi yığıncaqlar protokollaşdırılır. İdarə Heyəti 2 ayda 1 dəfədən az olmayaraq görüşür.

6.3. Assosiasiyanın sədri ümumi yığıncaqda sədrlik edir, o, yığıncaqda iştirak etmədikdə, bu vəzifəni İdarə Heyəti üzvlərindən biri, yaxud üzvlərdən biri həyata keçirir.

6.4. Ümumi yığıncaq Assosiasiyanın Əsasnaməsini qəbul edir, təsdiq üçün rektora və Elmi Şuraya təqdim edir. Lazım gəldikdə onlara dəyişikliklər və əlavələri edə bilər.
- idarə heyətinin üzvlərini, idarə heyətinin sədrini, təftiş komissiyasını seçir;
- Assosiasiyanın illik planını təsdiq etmək üçün Elmi Şuraya təqdim edir;
- Assosiasiyanın idarə olunması üçün lazım olan sənədləri: ADMİU-nun Məzunlar Assosiasiyasında "Assosiasiyanın İş Planı", "Assosasiyanın üzvlüyü haqqında Əsasnaməni", "Üzvlərin etik davranış qaydaları"nı, "Assosiasiyanın daxili qaydaları"nı və s. təsdiq edir.

6.5. Assosiasiyanın İdarə Heyəti 7 nəfərdən ibarətdir və ümumi yığıncaqda sadə səs çoxluğu ilə 2 il müddətinə seçilir. Ümumi yığıncağın qərarı ilə bir nəfər 3 dəfə sədr seçilə bilər.

7. **Yekun müddəalar**.

7.1. Assosiasiya ümumi yığıncağın, yaxud Elmi Şuranın qərarı ilə ləğv edilə bilər;

7.2. Assosiasiyanın ləğvi haqqında qərar ümumi yığıncaqda və ya Elmi Şurada iştirak edənlərin 2/3 hissəsinin səs verdiyi halda qüvvəyə minir.

7.3. Assosiasiya illik olaraq Elmi Şuraya hesabat verir.